UOT 94(479.24)

SAMİR İSMAYILOV
Bakı Dövlət Universitetinin
Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti
samir.ismayilov@mail.ru

BAKI DÖVLƏT UNİVERSİTETİNİN İLK NİZAMNAMƏSİ HAQQINDA

DOI: https://doi.org/10.36719/2708-065X/103/65-69

Məqalədə Azərbaycanın qocaman ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin ilk nizamnaməsindən bəhs olunur. Aparılan araşdırmalar göstərir ki, Bakı Dövlət Universitetinin ilk nizamnaməsi 5 fəsil, 72 maddədən ibarət idi. Nizamnamədən aydın olur ki, Bakı Dövlət Universiteti muxtariyyət hüquqlu elmi-tədris müəssisəsi idi. Universitet Azərbaycan Cümhuriyyətinin Maarif Nazirliyinə tabe idi. Nizamnamədən o da aydın olur ki, Universitet demokratik əsaslarla idarə olunur, heç bir ayrı-seçkilik qoyulmadan hər iki cinsin nümayəndələri tədrisə cəlb olunurdu. Bütün bunlar məqalədə arxiv sənədləri əsasında araşdırılaraq, Bakı Dövlət Universitetində tədris, idarəetmə məsələlərinə işıq salınmışdır.

Açar sözlər: Parlament, müzakirə, fraksiya, Bakı Dövlət Universiteti, ali təhsil müəssisəsi, nizamnamə.

Giriş. XX əsrin əvvəllərində Rusiya imperiyasında və o cümlədən onun milli ucqarlarından birini təşkil edən Azərbaycanda maarif sisteminin durumunda xeyli yeni və mütərəqqi təzahürlər meydana gəlməyə başlamışdı. Hələ əsası XIX əsrdə qoyulmuş dünyəvi mək-təblər şəbəkəsi bu dövrdə xeyli dərəcədə genişlənir, müsəlman ucqarlarda qızların təhsil almasına qoyulmuş və xürafatdan irəli gələn əngəllər tədricən aradan qaldırılırdı. Elmə, təhsilə həssaslıqla yanaşan, ali məktəb işini dərindən qiymətləndirən Azərbaycan Xalq Cümhuriyyətinin liderləri yaranmış əlverişli vəziyyəti yerindəcə qiymətləndirib qəti addım atdılar. Beləliklə, üç aya yaxın davam edən gərgin müzakirələrdən sonra Parlament 1919-cu il sentyabrın 1-də keçirilmiş 70-ci iclasında "Bakı Dövlət Darülfününu haqqında qanun"u təsdiq etdi.

Bakı Dövlət Universitetinin ilk nizamnaməsi. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 1919-cu il sentyabrın 29-da keçirilmiş 79-cu iclasında 72 maddə, 5 fəsildən ibarət olan "Bakı Dövlət Darülfününun Nizamnaməsi"ni təsdiq etdi [1, v.1-20]. Beş fəsil, 72 maddədən ibarət nizamnamədə universitetin təşkilati quruluşu, onun elm və tədris sahələrinin fəaliyyəti, professor-müəllim heyətinin vəzifə və hüquqları müəyyənləşdirildi [3, v.38].

Nizamnamənin 2 maddədən ibarət olan birinci fəslində Bakı Dövlət Universitetinin muxtariyyət hüquqlu elmi-tədris müəssisəsi olub, maarif nazirliyinin strukturunda fəaliyyət göstərdiyi, rektor, prorektor, dekanlar, şura və fakültə iclasları vasitəsilə idarə olunduğu təsbit edildi [3, v.38].

Nizamnaməyə əsasən Universitetin rəhbəri rektor idi. Nizamnamə çərçivəsində ona universitet idarəçiliyinin bütün sahələrinə rəhbərlik etmək səlahiyyəti verilirdi. Rektor professorlar arasından 3 il müddətinə seçilir, Xalq Maarif Nazirliyi tərəfindən təsdiq olunurdu. Rektor öz fəaliyyətində şura tərəfindən hazırlanan və təsdiq edilən təlimatlara əsaslanır, rektorun olmadığı müddətdə, onun vəzifəsini prorektor, yaxud dekanlardan biri icra edirdi [3, v.40].

Prorektor tələbə işləri üzrə rektorun köməkçisi idi. Prorektoru Universitet Şurası professorlar içərisindən 3 il müddətinə seçirdi.

Hər fakültənin başında dekan dururdu. Dekan tədrisə nəzarət edir, rektora və şuraya həvalə edilən vəzifələri fakültə daxilində icra edirdi. Dekan da professorlar arasından 3 il müddətinə seçilir və şura tərəfindən təsdiq olunurdu [3, v.40]. Şura Universitetin idarə edilməsinin ali və müstəqil orqanı idi [3, v.40].

Nizamnamənin 3-cü fəsli Universitetin tədris hissəsi üzrə şəxsi heyətinə həsr edilmişdi. Heyət professorlar, dosentlər, privat-dosentlər, müəllimlər, dillər üzrə mühazirəçilər, prorektorları və müa-

vinləri, assistentlər və ordinatorlardan ibarət idi [3, v.40]. Bu şəxslər həm seçilə, həm də dəvət oluna bilərdilər.

Universitet Nizamnaməsinin 4-cü fəsli tələbələrə həsr edilmişdi. Universitetə hər iki cinsdən olan orta təhsilli şəxslərin qəbul edildiyi təsdiq olunurdu. Mühazirə və əməli məşğələlərdə, tələbələrdən başqa, azad dinləyicilərin də iştirakına icazə verilirdi [3, v.40]. Qeyd edək ki, bu fəslin müzakirəsi Parlamentdə qızğın mübahisələrə səbəb olmuşdu. Azərbaycanda o zaman yaranmış obyektiv şəraiti nəzərə alan Parlament üzvləri Darülfünuna azərbaycanlıların qəbul edilməsi şərtlərini yüngülləşdirmək məqsədilə israr edirdilər ki, gimnaziya və buna bərabər realnı məktəbləri bitirib şəhadətnamə alan oğlan və qızlarımız olduqca azdır. Çünki onlar rus dilindən imtahanlarda "əsər", hətta "inşa" yazarkən qeyri-kafi qiymətə layiq görüldüklərindən, şəhadətnamə almaq hüququndan məhrumdurlar. Lakin sonralar öz təhsillərini artırmışdılar. Ona görə də, bu məktəbləri bitirən azərbaycanlı oğlan və qızlara Darülfünuna qəbul edilmə hüququ verilməlidir. Parlament deputatlarının əksəriyyəti təkidlə nizamnamənin 46-cı maddəsinə 2 qeyd əlavə etmişdilər: Qeyd 1: "Darülfünunun ancaq birinci ilində Azərbaycan təbəəsi olub zükur edadisinin 7-ci və realnı məktəbinin 6-cı sinfini qurtaran əfəndilərə ixtiyar verilir ki, tələbə sifətilə Darülfünuna daxil ola bilsinlər və diplom almaq üçün Darülfünunda oxuyan müddət edadi məktəbi proqramı üzrə axırıncı sinif imtahanını verməyə məcbur edilsinlər" [3, v.41-42]. Qeyd 2: "Azərbaycan təbəəsi olan Darülmüəllimin bitirmiş əfəndilər, o cümlədən Aleksandr darülmüəllimini (Müəllimlər Seminariyası – S.İ.) bitirənlər təyin edilmiş elmlərdən imtahan vermək şərti ilə Darülfünuna (ali məktəbə - S.İ.) girməyə ixtiyarı vardır" [3, v.42].

Parlamentdə ciddi müzakirələrdən sonra Darülfünunda tələbə təşkilatlarının yaradılmasına icazə verildi və nizamnamədə bu təşkilatların hüquq və fəaliyyət sahələri dəqiqləşdirildi [3, v.42].

Tibb fakültəsində təhsil alan tələbələr üçün 10, tarix-filologiya fakültəsində təhsil alan tələbələr üçün isə 8 semestr təhsil müddəti müəyyənləşdirilmişdi.

Beşinci fəsildə Universitetdə qulluq edən şəxslərin hüquq və vəzifələrindən, imtiyazlarından bəhs olunurdu. Universitet şurasına fakültələrin təqdimatı ilə elmlər namizədi və doktoru elmi dərəcələri vermək səlahiyyəti verilirdi [3, v.42]. Nizamnamənin bu fəslində professor-müəllim və işçi heyəti üçün xüsusi bir imtiyaz, pensiya təyin edilmişdi. Belə ki, 25 ildən 30 ilədək xidmət etmiş professorlar illik əmək haqlarının 2/3 hissəsi, 20 ildən 25 ilədək xidmət edənlərə maaşların yarısı, ağır, müalicəedilməz xəstəliyə mübtəla olub işləyə bilməyən professorlara 5-10 il iş təcrübəsi olduqda əməkhqqının 1/3-i, 10-20 ilədək staja 2/3 hissəsi, 20 ildən artq iş təcrübəsi olduqda isə tam maaşları həcmində pensiya alırdılar [3, v.43-44].

Bakı Darülfünunun ilk tədris və xidmətçi şəxsi heyəti aşağıdakı kimi idi: Tibb fakültəsi – Professor V.İ.Razumovski – Darülfünunun rektoru, operativ cərrahiyyə və topoqrafik anatomiya professoru, L.M.Levin – fakültətiv daxili xəstəliklər klinika professoru, professor İ.İ.Şirokoqorov – tibb fakültəsinin dekanı və patoloji anatomiya professoru, professor A.A.Oşman – fakültətiv klinika professoru, Qolovinsk – farmakologiya professoru, D.Q.Qureviç – kimya kafedrası üzrə dosent vəzifəsini icra edən, həkim A.M.Prokofyeva fakültətiv daxili xəstəliklər klinikasının baş assistenti, həkim D.U.Urusov – anatomiya kafedrası üzrə prorektor vəzifəsini icra edən, həkim A.M.Zamuxovski – anatomiya kafedrası üzrə kiçik assistent, A.A.Juravskaya – anatomiya kafedrası üzrə preporator, həkim A.O.Vartanyan – operativ cərrahlıq kafedrası üzrə kiçik assistent.

Tarix-filologiya fakültəsi üzrə - dosent N.A.Dubrovski- tarix-filologiya fakültəsinin dekanı və ümumi tarix dosenti vəzifəsini icra edən, professor Foxt – Qərbi Avropa ədəbiyyatı tarixi professoru, professor N.Q.Qorodeski – fəlsəfə professoru, fəlsəfə elmləri doktoru L.Q.Lopatinski – klassik filologiya kafedrası üzrə dosent, A.M.Şahtaxtinski – türk dili kafedrası dosenti vəzifəsini icra edən, A.B.Selixanoviç – fəlsəfə kafedrası üzrə dosent, P.L.Pilaşevski – rus dili ədəbiyyatı kafedrası üzrə privat dosent, L.A.İşkov – ümumi tarix kafedrası üzrə dosent vəzifəsini icra edən, magistrant L.A.Zimin – müsəlman Şərqi kafedrası üzrə müəllim [6, s.3].

Beləliklə, universitetin və kafedraların əsas işçiləri müəyyənləşdirildi. Bununla yanaşı, universitet bir sıra kadr və texniki problemlərlə qarşılaşdı. Yaranmış çətinlikləri aradan qaldırmaq üçün 1919-cu ilin sentyabrın 22-də V.İ.Razumovski və N.A.Dubrovski Rusiyanın cənub universitetlərinin fəaliyyət göstərdiyi şəhərlərə - Rostov, Dneprpetrovsk və Xarkova getdilər. Onlar Rostov-Don, Yekaterinoslav və Xarkov şəhərlərində fəaliyyət göstərən bir sıra alimlərdən Bakıya gəlmələri üçün

razılıq ala bildilər [10, v.2]. Belə bir zamanda universitet komissiyasının üzvü, professor V.K.Finkelşteyn avadanlıq, ədəbiyyat və s. almaq üçün Qərbi Avropaya getdi [10, v.2].

Bütün hazırlıqlar başa çatdıqdan sonra 1919-cu il noyabrın 10-da Universitet Şurasının birinci iclası oldu. İclasda professorların və akademik heyətin tərkibi təsdiq edildi. İlk tədris ilində universitetə ştat üzrə lazım olan 104 nəfər, o cümlədən 43 professor və privat dosent cəlb etmək mümkün oldu [5, s.9].

1919-cu il noyabrın 15-də şənbə günü (bəzi mülahizələrə görə həmin dövrdə həftənin cümə günü qeyri-iş günü hesab olunurdu, yeni iş həftəsi 6-cı günü, şənbə günü başlanırdı) universitetdə birinci dərs günü elan edildi [5, s.9]. Universitetdə ilk mühazirəni ümumdünya tarixindən N.A.Dubrovski oxudu. İzdihamlı auditoriyada təkcə tələbələr deyil, həmçinin çoxlu sayda ziyalılar, parlament və hökumət üzvləri də iştirak edirdi [8, s.18-19].

1919-cu il noyabrın 17-də "Azərbaycan" qəzetində (İ.H. imzası ilə) "Darülfünunun açılması" adlı məqalədə yazılırdı: "Dün Azərbaycan Darülfünunu ilk dəfə olaraq açıldı və ilk gündür ki, məşğuliyyətə başladı" [2, s.15; 4, s.1] Daha sonra məqalədə Vətənin, millətin ictimai-siyasi həyatında, tərəqqisində universitetin oynayacağı rolun, meyarın heç nə ilə ölçülə bilməyəcəyi böyük sevinc hissi ilə qeyd edilirdi. Eyni zamanda məqalədə Avropa xalqlarının inkişafında həmin ölkələrin universitetlərinin əhəmiyyətli rolundan bəhs edilərək yazılırdı: "Tarixdə Afina darülfünununun yeni bir Yunanıstan yaratdığını kim inkar edə bilər? Bir əsr əvvəl Fransiyayı aləmşümul təqəllüb və təkamülə atan Sorbon darülfünunu, Sorbonna darülfünununda bir silsilə həmiyyətlə çalışan müdərrislər dəgilmi? Almanları 1806-cı il fəlakətindən sonra yenidən şöhrətə, siyasət və hərbə hazırlayan və Napoleondan qəhar bir intiqam alan Berlin və Hamburq darülfünunları və hər iki darülfünun simaları Kant və Fixtenin əsərləri olmamışdırmı? ... Yeni millət yeni elm, yeni fəlsəfə demək isə, hər darülfünunda yeni bir məbəd olması icab edər... Azərbaycan Darülfünunu, əlbəttə, bir türk Darülfünunudur, çünki türk milləti, türk parlamanı, türk hökuməti tərəfindən türk gəncliyi üçün açılmışdır... Darülfünunun həyat və məşğuliyyətə başlaması tarixi olan 15 noyabr yeni bir tərəqqi dövrünün açılmasının bir ibtidası olacaqdır" [4, s.1].

"Azərbaycan" qəzetinin 1919-cu il 30 noyabr tarixli 260-cı nömrəsində ilk tədris ilində Darülfünunun tarix-filologiya fakültəsində tələbə heyəti və onun milli tərkibi haqqında aşağıdakı məlumatlar yer almışdır: "Tarix-filologiya fakültəsi – 1-ci qrupa qəbul edilmişdir 113 nəfər, 2-ci qrupa latın dilindən əlavə imtahan vermək şərti ilə -107 nəfər, 3-cü qrupa – 27 nəfər, 4-cü qrupa əlavə imtahanları vermək şərti ilə - 63 nəfər, 5-ci qrupa bir ay ərzində tələb olunan sənədləri təqdim etmək şərti ilə - 11 nəfər. Təyin edilmiş imtahanları verən, tələb olunan sənədləri təqdim edən şəxslər birinci qrupa daxil edilirlər" [2, s.15].

"Azərbaycan" qəzetinin 5 fevral, 1920-ci il tarixli 21-ci sayında isə tarix-filologiya fakültəsinin milli tərkibi belə idi: "Nazirliyin və Darülfünunun rektorunun verdiyi axırıncı məlumata əsasən hal-hazırda Darülfünunun tarix-filologiya fakültəsinin birinci kursunda 509 həqiqi tələbə var, onlardan 125-i müsəlman, 178-i yəhudi, 121-i rus, 67-si erməni, 5-i gürcü, 13-ü polyak və alman. Darülfünunda cəmi 877 tələbə var. Bunlardan başqa 217 azad dinləyici də var idi" [2, s.16].

Nəticə. Beləliklə, 1919-cu il noyabrın 15-də Azərbaycan xalqı daha bir tarixi hadisəyə şahidlik etdi. Azərbaycanda, Bakıda müsəlman Şərqində ilk Avropa tipli ali məktəb Bakı Dövlət Universiteti fəaliyyətə başladı. Bakı Dövlət Universiteti haqqında qanunda 4 fakültənin açılması nəzərdə tutulsa da, böyük çətinliklərlə universitet 2 fakültə, tarix-filologiya və tibb fakültəsi ilə ümumilikdə 4 kurs, onlardan tibb fakültəsi üzrə 3 kurs, tarix-filologiya fakültəsi üzrə 1 kurs olmaqla dərslərə başladı. Bakı Dövlət Universitetin yaradılması böyük tarixi bir hadisə idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlalının elan edilməsindən sonra Cümhuriyyət xadimləri ölkənin gələcək taleyini, milli özünüdərk prosesini, dünyaya çıxış imkanlarını tam zamanında qiymətləndirib daha bir taleyüklü məsələni həll etdilər. Məhz görülən bu tədbirlər sayəsində xalqımızın övladları müasir universitet təhsili almaq üçün imkan qazandılar. Azərbaycan Xalq Cümhuriyyəti daha bir ilkə imza atdı, Azərbaycanda universitet təhsilinin təməli qoyuldu. Bütün bunlar milli şüurun, müstəqil dövlətçilik hisslərinin gücləndirilməsinə təsir edirdi.

Universitetin ilk rektoru, professor Vasili İvanoviç Razumovski bu təhsil ocağının fəaliyyətə başlamasının əhəmiyyətindən bəhs edərkən yazırdı: "Azərbaycan öz maarif ocağını yaratdı. Türk

xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hesab edə bilərik...” [8, s.16].

İlk tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər idi. Bundan başqa, universitetə 217 azad dinləyici qəbul edilmişdi. Bakı Dövlət Universiteti ilk bəhrəsini 1922-ci ildə verdi: 30 nəfər gənc ali təhsilli həkim adına layiq olmaları barədə universitet diplomu aldı [9, s.2]. Lakin Azərbaycanda hər şey arzu edildiyi kimi getmədi. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin zorla devrilməsi, bolşeviklərin hakimiyyətə gəlməsi respublikanın, o cümlədən Bakı Dövlət Universitetinin də tarixində mürəkkəb bir dövrün başlanğıcını qoydu.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 79-cu iclası. 29 sentyabr, 1919-cu il. Protokol №79 // ARDA, f.895, siy. 1, iş 119, v. 1-20.
2. Bakı Dövlət Darülfünununun təsisi (sənədlər toplusu). Tərtib edəni və ön sözün müəllifi S.İbrahimov. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, 88 s.
3. Bakı Dövləti Darülfünunun Nizamnaməsi. – ARDA, f. 895, siy. 3, iş 73, v. 38.
4. Darülfünunun açılması.- Azərbaycan qəzeti, 17 noyabr, 1919, №323.
5. Əmrahov Z., İsmayılov S. Bakı Dövlət Universitetinin tarixi. Bakı: Elm və təhsil, 2019, 328 s.
6. В Университет. Личный состав. – Азербайджан, 29 октября 1919, №230, с. 3.
7. В Университет. – Азербайджан. 18 ноября 1919, №249, с. 4.
8. Разумовский В.И. Основание Университета в гор. Баку. – Азербайджанский Государственный Университет. Статьи профессоров В.И.Разумовского и С.Н.Давиденкого. Баку: Гостипография Азполиграфтреста, 1922.
9. Сообщение из газеты Бак. раб. Первый выпуск Бакинского университета. – Бакинский рабочий, 6 августа 1922 г., № 174.
10. Удостоврение Ректор Бакинского Государственного Университета, заслуженный профессор В.И.Разумовский. 22 сентября 1919 г. – ARDA, f.1640, siy.1, iş 6, v.2.

САМИР ИСМАИЛОВ
Доцент кафедры источниковедения, историографии и методологии Бакинского государственного университета

О ПЕРВОМ УСТАВЕ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА

В статье говорится о первом уставе Бакинского государственного университета, первого высшего учебного заведения в Азербайджане. Проведенные исследования показывают, что первый устав Бакинского государственного университета состоял из 5 глав и 72 статей. Из устава ясно, что Бакинский государственный университет был автономным научно-образовательным учреждением. Университет находился в ведении Министерства Образования Азербайджанской Республики. Из устава также ясно, что управление университетом осуществлялось на демократических началах, а в преподавании принимали участие представители обоих полов без какой-либо дискриминации. Все это было исследовано в статье на основе архивных документов и пролит свет на вопросы преподавания и управления в Бакинском государственном университете.

Ключевые слова: Парламент, обсуждение, фракция, Бакинский государственный университет, высшее учебное заведение, устав.

SAMIR ISMAILOV
Associate professor of the Department of Source Studies, Historiography and Methodology of Baku State University

ABOUT THE FİRST CHARTER OF BAKU STATE UNİVERSİTY

The article talks about the first charter of Baku State University, the first institution of higher education in Azerbaijan. The conducted studies show that the first charter of Baku State University

consisted of 5 chapters and 72 articles. It is clear from the charter that Baku State University was an autonomous scientific-educational institution. The university was under the Ministry of Education of the Republic of Azerbaijan. It is also clear from the charter that the University was managed on a democratic basis, and representatives of both sexes were involved in teaching without any discrimination. All this was investigated in the article on the basis of archival documents, and light was shed on the issues of teaching and management at Baku State University.

Keywords: Parliament, discussion, faction, Baku State University, higher education institution, charter.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.